ƏDLİYYƏ

881 ÇAĞRI MƏRKƏZİ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

№ 02 (263) fevral 2026

# Nazir Fərid Əhmədov Göyçay şəhərində vətəndaşları qəbul edib







**Ədliyyə naziri Fərid Əhmədov 6 fevral tarixində Göyçay şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Göyçay, Ağdaş, Ağsu, Zərdab, İsmayıllı, Kürdəmir, Ucar və Şamaxı rayonlarından ümumilikdə 74 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Ədliyyə naziri Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib



**Ədliyyə naziri Fərid Əhmədov Mentorluq Proqramı çərçivəsində dördüncü "Yüksəliş" müsabiqəsinin qalibləri Eyyub Fətəliyev və Rüfət Məmmədxanlı ilə Mentorluq Proqramının başa çatması münasibətilə növbəti dəfə görüşüb.**

Görüş zamanı müsabiqə qaliblərinin fərdi inkişaf planları çərçivəsində görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda, idarəçilik bacarıqlarının inkişafı, strateji baxışın formalaşdırılması və müasir çağırışlar fonunda dövlət idarəetməsində çevik qərarvermə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qaliblər proqram çərçivəsində keçirilən görüşlərin onların həm nəzəri biliklərinin möhkəmlənməsinə, həm də real idarəçilik mühitini yaxından öyrənmələrinə mühüm töhfə verdiyini bildirib, göstərilən dəstək və tövsiyələr üçün təşəkkürlərini ifadə ediblər.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsis edilib.

Növbəti "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 10 dekabr 2025-ci il tarixində müvafiq Sərəncam imzalanıb.

# Ədliyyə naziri Fərid Əhmədov "LEGİS Hüquq Forum"unda çıxış edib



**Həqiqətən də, "LEGİS Hüquq Forumu" cəmiyyəti və hüquq ictimaiyyətini maraqlandıran bir platformadır. Hüquq təhsilinin mahiyyəti bütövlükdə hüquq sistemində həyata keçirilən islahatların təməlində duran amil kimi qiymətləndirilməlidir. Hüquq təhsilinin keyfiyyətində olan boşluqlar sonradan ədalət mühakiməsi və normayaratma prosesində olan boşluqlara çevrilir. Hər şeyin kökü hüquq təhsilindən qaynaqlanır.**

AZƏRTAC xəbər verir ki, bunu ədliyyə naziri Fərid Əhmədov "LEGİS Hüquq Forum"unda çıxış edərkən deyib.

Nazir hüquq təhsilində kəmiyyət və keyfiyyət elementi ilə bağlı fikirlərini də bölüşüb: "Bu gün təhsil müəssisələri əmək bazarına hər il 1400 hüquq məzunu buraxır. Bunların 600-ü ixtisaslaşmış təhsil müəssisələrindən məzun olurlar. Bu şəxslərin sonradan əmək bazarına daxil olma imkanları yaranır. Biz ölkədə vəkillərin sayına baxsaq, hər 100 min şəxsə 28 nəfər düşür. Bizdə təbii ki, vəkil olmayan hüquqşünaslar da var. Məhkəmədə mübahisələrin sayında artım var. Bu baxımdan hüquq təhsilinin səviyyəsi kəmiyyət baxımından xeyli aşağıdır. Kifayət qədər hüquqşünası əmək bazarına buraxa bilmərik. Regionlarda yeni hüquq fakültələri yarada bilərik. Regionlarda hüquqşünas çatışmazlığı ilə ciddi şəkildə üzləşirik. Bir sıra regionlarda biz icra məmuru tapa bilmirdik. Həmçinin ali məktəblərə qəbul planını artıra bilərik. Faktiki olaraq Hüquq fakültəsinə qəbul olunan tələbələrin minimum topladığı bal 600-dən yuxarıdır. 600 bal toplamış tələbə bitirdikdən sonra regionlarda işləməyəcək. Biz kəmiyyət problemini həll etdikcə, dərhal keyfiyyət problemi ilə üzləşirik. Tələbələrin sayı artdıqca dərs yükü artır, bu da müəllim sayının artması deməkdir. Əmək bazarında da kifayət qədər müəllim yoxdur. Biz kəmiyyəti keyfiyyətə çevirə bilmirik. Bu prosesdə müəllim heyətinin sayının artması istiqamətində ciddi işlər görməliyik. Təhsil proqramları uzun illərdir ki, dəyişmədən qalır. Hüququn təməl prinsiplərini anlamadan onun nəzəriyyəsini bilmək mümkün deyil. Hüquq nəzəriyyəsi isə dərslikdən tədris olunan fənn deyil".









# Ədliyyə Nazirliyinin kollektivi Xocalı soyqırımı abidəsini ziyarət edib

**Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar Ədliyyə Nazirliyinin rəhbərliyi və əməkdaşları faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**

Nazirliyin kollektivi faciə qurbanlarının xatirəsini ehtiramla yad edərək, soyqırımı abidəsinin önünə güllər düzüb.

# Ədliyyə Nazirliyində Xocalı soyqırımı ilə bağlı tədbir keçirilib






**Ədliyyə Nazirliyində Xocalı soyqırımının 34-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.**

Tədbirdə Xocalı faciəsi qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan nazir müavini Abiddin Hüseynov Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciələrindən biri olduğunu vurğulayıb. O bildirib ki, 1992-ci il fevralın 26-da dinc əhaliyə qarşı törədilmiş qətliam nəticəsində yüzlərlə insan xüsusi amansızlıqla qətlə yetirilib, minlərlə sakin yaralanıb və girov götürülüb. Nazir müavini qeyd edib ki, Azərbaycan xalqı bu ağır faciəni heç vaxt unutmur və unutdurmayacaq. O, həmçinin diqqətə çatdırıb ki, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasəti və Azərbaycanın rəşadətli Ordusunun şücaəti nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub, bununla da şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının qanı yerdə qalmayıb.




Daha sonra çıxış edən Milli Məclisin deputatı Məlahət Həsənova Xocalı soyqırımının Azərbaycan xalqının yaddaşında silinməz iz buraxdığını qeyd edib. O, faciənin dünya miqyasında tanıdılması istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən danışıb. Millət vəkili vurğulayıb ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində bu kimi anım tədbirlərinin xüsusi rolu var.

Xocalıda üçrəngli bayrağımızın dalğalanması tarixi ədalətin bərpasının və faciə qurbanlarının xatirəsinə göstərilən ali ehtiramın bariz ifadəsidir.

# Amnistiya aktı 15 mindən çox şəxs barəsində tətbiq edilib




**”Konstitusiya və Suverenlik İli” münasibətilə amnistiya elan edilməsi haqqında Milli Məclisin 19 dekabr 2025-ci il tarixli Qərarı 22 dekabr 2025-ci il tarixdən 8 fevral 2026-cı il tarixədək prokurorluq və məhkəmə orqanları ilə birgə Ədliyyə Nazirliyinin Penitensiar və Probasiya xidmətləri, habelə İstintaq idarəsi üzrə 15.119 şəxs barəsində tətbiq olunub.**

Amnistiya tətbiq olunan şəxslərin 5.148-i müəyyən müddətə azadlıqdan məhrumetmə, 8.914-ü isə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalardan azad edilib. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 1.045 nəfərin cəzası 6 ay azaldılıb. 12 nəfər isə cinayət məsuliyyətindən azad edilib (ədliyyə orqanlarının istintaq aidiyyəti üzrə).

Cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslərdən Vətən müharibəsində iştirak etdiyinə görə 15 nəfər və qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatdığına görə 15 nəfər də cəzadan azad edilənlər arasında yer alıb.

Amnistiya tətbiq olunmuş şəxslərdən 1.216-sı böyük ictimai təhlükə törətməyən, 13.054-ü az ağır, 849-u ağır cinayətlər törətmiş şəxslərdir.

Ümumilikdə amnistiya tətbiq olunmuş şəxslərdən 14.345-i kişi (onlardan 18-i yetkinlik yaşına çatmayan şəxslərdir), 774-ü isə qadındır.

Amnistiya aktının icrası davam etdirilir.

# Milli Məclisdə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib






**Fevralın 13-də Milli Məclisin növbəti plenar iclasında Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəsi dinlənilib.**

Ədliyyə nazirinin müavini Toğrul Hüseynov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzəni təqdim edib.

Çıxışında 2025-ci ildə Azərbaycanın siyasi və diplomatik uğurlarından söz açan nazir müavini qeyd edib ki, ötən ildə ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da müsbət nəticələr əldə olunub. Yerli özünüidarəetmə sahəsində islahatların yeni mərhələsinə start verilib və bələdiyyələrin struktur islahatları nəticəsində onların sayı ölkə üzrə 685 vahid təşkil edib. Həmçinin ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra ilk dəfə ötən ilin yanvarında bələdiyyə seçkiləri keçirilib, nəticədə bələdiyyələrin yeni tərkibi formalaşıb. Əvvəlki seçkilərdə olduğu kimi, yeni seçilən bələdiyyə üzvlərinin böyük hissəsini qadınlar və gənclər təşkil edib.

Diqqətə çatdırılıb ki, hesabat ilində inzibati nəzarət qaydasında baxılması üçün daxil olmuş 81.711, o cümlədən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyində 1.935 bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, nəticədə onların 97,2%-nin qanunvericiliyə uyğun olduğu müəyyən edilib. Ümumilikdə, həm aktlar, həm də müraciətlər üzrə inzibati nəzarət icraatı zamanı 1.700-ə yaxın aktın dəyişdirilməsi və ya ləğv edilməsi aidiyyəti bələdiyyələrə təklif olunub. Bələdiyyələrin fəaliyyəti ilə bağlı baxılmış 4.132 müraciətdən 313-ü təmin edilib. Şəhid ailəsi üzvlərinin, müharibə əlili və iştirakçılarının müraciətləri xüsusi nəzarətdə saxlanılıb və belə müraciətlərdən 65-i təmin olunub.

Qeyd olunub ki, inzibati nəzarət icraatı zamanı 62 halda cinayət əlamətləri aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib. Həmin materiallardan 14-ü üzrə cinayət işi başlanılıb, bir qismi üzrə qanun pozuntularının aradan qaldırılması barədə təqdimatlar verilib, digər materiallar isə istintaq orqanlarında



baxılmaqdadır. Bildirilib ki, 2025-ci ildən etibarən inzibati nəzarət qaydasında baxılması üçün ölkə bələdiyyələri üzrə bütün aktların qanunvericiliyin tələbinə uyğun olaraq "Bələdiyyələrlə iş" informasiya sisteminə yerləşdirilməsi təmin olunub.

Torpaq sahələrinin qanunsuz ayrılması barədə bələdiyyə aktlarının ləğv edilməsi nəticəsində 3 min hektardan çox torpaq sahəsi bələdiyyə mülkiyyətinə qaytarılıb.

Bildirilib ki, 2025-ci ilin aprel ayında dərc olunan Dövlət Statistika Komitəsinin 2024-cü il üzrə bələdiyyə büdcəsinin icrası barədə məlumatına əsasən, ölkə üzrə bələdiyyələrin büdcə gəlirləri əvvəlki illə müqayisədə təxminən 7,9 milyon manat (14,4%) artaraq, 63 milyon manata yaxın vəsait təşkil edib. Bələdiyyələrin vahid informasiya sistemindən əldə olunan məlumatlara əsasən, bu göstəricinin 2025-ci ilin yekunları üzrə də yüksək olması proqnozlaşdırılır. Qeyd olunub ki, 2025-ci ildə 4 yeni bələdiyyə müəssisəsi yaradılıb.

Diqqətə çatdırılıb ki, keçən il qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərə uyğun olaraq "Elektron icra" informasiya sistemi ilə bələdiyyələrin icra sənədlərinin elektron kabinet vasitəsilə operativ şəkildə icraya yönəldilməsi, icra prosesinin izlənilməsi imkanı təmin olunub.

Yerli özünüidarəetmə sahəsində aşkarlığın, şəffaflığın, ictimai iştirakçılığın artırılması ilə bağlı da ardıcıl tədbirlər görülüb. Vurğulanıb ki, "Bələdiyyələrlə iş" informasiya sistemi yerli özünüidarəetmə orqanlarının fəaliyyətində operativliyin, səmərəliliyin, şəffaflığın, habelə məlumatların sistemliliyinin və əlçatanlığının təmin olunmasında mühüm rol oynayır.

Eyni zamanda, bir sıra qanunlara edilmiş dəyişikliklərlə bələdiyyələrin vahid informasiya sisteminə dövlət informasiya sistemi statusu verilib, sistemin "Hökumət buludu"nda yerləşdirilməsi və dövlət reyestrlərinə daxil edilməsi nəzərdə tutulub.

Ötən il ərzində bələdiyyələr tərəfindən yerli əhalinin rifahının yaxşılaşdırılması və həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi məqsədilə sosialyönümlü layihələrin icrası prioritet istiqamətlərdən biri olub. 2025-ci ildə bələdiyyələr tərəfindən abadlıq işlərinə 10 milyon manata yaxın, sosial müdafiə və sosial təminatla bağlı xərclərə 1,7 milyon manatdan çox vəsait sərf olunub.

Nazir müavinin sözlərinə görə, 2025-ci ildə bələdiyyə üzvlərinin və qulluqçularının hüquqi maarifləndirilməsi də diqqət mərkəzində saxlanılıb. Nazirlik tərəfindən ölkəmizdə yerli özünüidarəetmənin səmərəliliyinin artırılması məqsədilə aidiyyəti dövlət orqanları, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi və onun müvafiq komitələri ilə sıx əməkdaşlıq davam etdirilib.

Vurğulanıb ki, ümumilikdə 2025-ci il ərzində görülən işlər ölkəmizdə bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi ictimai nüfuzunun yüksəldilməsinə və onların fəaliyyətində qanunçuluğun möhkəmləndirilməsinə xidmət edir.

Sonra Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi barədə komitənin rəyini diqqətə çatdırıb.

Daha sonra məruzə ətrafında müzakirələr aparılıb, təkliflər dinlənilib.

İclasda nazir müavini Toğrul Hüseynov müzakirələr zamanı qaldırılan məsələlərə münasibətini bildirib, səsləndirilən fikirlər və təkliflərlə bağlı müvafiq işlərin görüləcəyini deyib.

Sonda Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2025-ci ildə fəaliyyəti haqqında məruzə səsə qoyularaq nəzərə alınıb.

# Ədliyyə nazirinin müavini: Rəqəmsallaşma icra prosesində əsas problemləri aradan qaldırır

**Məhkəmə qərarlarının vaxtında və səmərəli icrası ədalət mühakiməsinin əsas tərkib hissəsidir və bu sahədə rəqəmsallaşma ilə süni intellekt texnologiyalarının tətbiqi xüsusi əhəmiyyət daşıyır.**

AZƏRTAC xəbər verir ki, bunu ədliyyə nazirinin müavini Toğrul Hüseynov Azərbaycan Hakimlərinin II Forumu çərçivəsində keçirilən "Rəqəmsallaşma və süni intellektin tətbiqi imkanları" adlı panel müzakirəsi zamanı bildirib.

Onun sözlərinə görə, ənənəvi icra prosesində icra növbələrinin uzanması, borcluların aktivlərinin müəyyənləşdiril-




məsində çətinliklər, qurumlararası koordinasiyanın zəifliyi və statistik uyğunsuzluqlar mövcud olub. Rəqəmsallaşdırılmış icra mexanizmləri bu problemlərin aradan qaldırılmasına imkan verib.

Nazir müavini qeyd edib ki, elektron icra informasiya sistemi vasitəsilə qərarların icrası sürətlənib, məlumat mübadiləsi operativləşib və şəffaflıq təmin olunub. 2025-ci ilin mayında qüvvəyə minmiş qanunvericilik dəyişiklikləri isə icra sənədlərinin yalnız elektron qaydada qəbulunu və icra prosesinin tam rəqəmsal əsasda aparılmasını mümkün edib.

Toğrul Hüseynov deyib ki, borclu şəxslərin ölkədən çıxışına məhdudiyyətlərin tətbiqi və aradan qaldırılması elektron sistemlər üzərindən həyata keçirilir, bu barədə şəxslərə SMS bildirişlər göndərilir.

Çıxışda, həmçinin elektron hərrac mexanizmlərinin genişləndirilməsinin iştirakçı sayını artırdığı və borclunun əmlakının daha ədalətli bazar dəyəri ilə satışına şərait yaratdığı vurğulanıb.

Nazir müavininin sözlərinə görə, bu islahatlar icra prosesində çevikliyi artırmaqla yanaşı, vətəndaşların ədalət mühakiməsinə çıxış imkanlarını da genişləndirir.

# ”Biznesin müflisləşməsi” İşçi qrupunun növbəti görüşü keçirilib





**Fevralın 2-də Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi ”Biznesin müflisləşməsi” İşçi qrupunun geniş tərkibli növbəti iclası keçirilib.**

Görüşdə Ədliyyə və İqtisadiyyat nazirliklərinin, eləcə də Mərkəzi Bankın əməkdaşları, aparıcı hüquq və konsaltinq şirkətlərinin nümayəndələri, İşçi qrupun digər üzvləri, habelə beynəlxalq ekspertlər iştirak ediblər.

Görüşü açıq elan edən İşçi qrupun rəhbəri, ədliyyə nazirinin müavini Abiddin Hüseynov Almaniyadan cəlb olunan müflisləşmə üzrə beynəlxalq ekspertləri - Prof. Dr. Stephan Madaus və Dr. Abbas Abbasovu iclas iştirakçılarına təqdim edib.

Beynəlxalq ekspertlər sağlamlaşdırma və müflisləşmə sahəsində qabaqcıl beynəlxalq yanaşmalar, onların tətbiqi imkanları, bu sahədə mövcud olan problemlər və digər məsələlər barədə məlumat veriblər.

Həmçinin görüş zamanı tematik qrup tərəfindən hazırlanan ”Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsi üzrə beynəlxalq ekspertlərin tövsiyələri dinlənilib.

Eyni zamanda, görüşdə iclas iştirakçılarının bu sahə ilə bağlı maraq doğuran sualları beynəlxalq ekspertlər tərəfindən cavablandırılıb.

# Milli Biznesin İnkişafı Forumunda ”Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsi müzakirə olunub

**”Caspian Energy Club” və Azərbaycan Milli Biznes Assosiasiyasının (MİLLİ.BİZ) birgə təşkilatçılığı ilə Milli Biznesin İnkişafı Forumunun on ikinci xüsusi sessiyası keçirilib.**

”Sağlamlaşdırma və müflisləşmə haqqında qanun layihəsi” mövzusuna həsr olunmuş sessiyada ədliyyə nazirinin müavini Abiddin Hüseynov fəxri qonaq qismində iştirak edib.

Açılış nitqi ilə çıxış edən Abiddin Hüseynov müasir dövrdə müflisləşmə prosesinin bir çox hallarda biznesin sonu deyil, əksinə, onun yenidən strukturlaşdırılması və sağlam əsaslar üzərində qurulması üçün imkan yaradan mərhələ olduğunu bildirib. Onun sözlərinə görə, beynəlxalq təcrübə düzgün və balanslı tətbiq olunan müflisləşmə mexanizmlərinin investisiya mühitinə müsbət təsir göstərdiyini, daxili və xarici sərmayədarlar üçün etibarlı və proqnozlaşdırıla bilən biznes mühitini formalaşdırdığını göstərir.

Nazir müavini qeyd edib ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Dünya Bankının ”Əlverişli Biznes Mühiti” (Business Ready) layihəsi çərçivəsində Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi ”Biznesin müflisləşməsi” işçi qrupu tərəfindən yeni və daha təkmil hüquqi tənzimləmə mexanizmlərini nəzərdə tutan ”Sağlamlaşdırma və müflisləşmə haqqında” qanun layihəsi hazırlanıb, hazırda layihə üzrə müvafiq müzakirələr aparılır.

Layihədə əmlak inzibatçısına dair tələblərin, onların hüquq və vəzifələrinin daha dəqiq müəyyən olunması, həmçinin sağlamlaşdırma prosesinin mərhələli və sistemli şəkildə həyata keçirilməsi planlaşdırılır. Yeni qanun layihəsində qüvvədə olan qanunvericilikdən fərqli olaraq sağlamlaşdırma prosesinin təkcə borclulara münasibətdə deyil, kreditorların da maraqlarının təmin edilməsinə münasibətdə tətbiqi nəzərdə tutulur.





Vurğulanıb ki, yeni qanun layihəsi borc öhdəliklərinin strukturlaşdırılması üçün vahid mexanizm yaradır, iflas prosesi ilə üzləşən şirkətlər üçün aydın fəaliyyət planı təqdim edir və bu yanaşma, xüsusilə xarici investorlar üçün mühüm əhəmiyyət daşıyır.

”Caspian Energy Club”ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev ötən il ərzində Ədliyyə Nazirliyinin rəhbər heyəti ilə ”Caspian Energy Club” üzvləri arasında forumun xüsusi sessiyaları və işçi qruplar çərçivəsində səmərəli müzakirələr aparıldığını bildirib, bu görüşlərin sahibkarların hüquqlarının qorunması və maarifləndirilməsinə töhfə verdiyini qeyd edib.

Nazirliyin İcra xidməti, Qanunvericilik baş idarəsi, Notariat, qeydiyyat, reyestr baş idarəsi və Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsinin əməkdaşlarının da iştirak etdiyi müzakirə sessiyasında beynəlxalq təcrübə, hüquqi mexanizmlər və təqdim olunan qanun layihəsinin biznes mühitinə mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Xüsusi sessiyanın sonunda Abiddin Hüseynova ”Caspian Energy Club”ın fəxri üzvlüyünə dair sertifikat təqdim olunub.

# Ədliyyə Nazirliyinin rəhbər heyəti tərəfindən bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirilir

**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Fevralın 18-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Şəmkir, Bərdə, Gəncə, Lənkəran, Şəki regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Videoqəbulda penitensiar sahə ilə bağlı qəbulda iştirak üçün müraciət edən 10 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.





Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.

# Məhkəmə ekspertizası sahəsində yeni elmi-metodiki materialların təqdimatı keçirilib





**Fevralın 10-da Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ilə Hüquq və İnsan Haqları İnstitutunun birgə əməkdaşlığı çərçivəsində məhkəmə ekspertizası sahəsində hazırlanmış 9 yeni elmi-metodiki materialın təqdimatı olub.**

Tədbirdə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəisi Elşən Albəndov və Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə çıxış ediblər.

Onlar məhkəmə ekspertizası sahəsində müasir elmi-metodiki yanaşmaların tətbiqinin, normativ-hüquqi bazanın təkmilləşdirilməsinin və elmi nəticələrin praktiki fəaliyyətə inteqrasiyasının hüquq sisteminin inkişafı baxımından əhəmiyyətini vurğulayıblar. Həmçinin hüquq-mühafizə orqanları, elmi-tədqiqat müəssisələri və ali təhsil ocaqları arasında əməkdaşlığın genişləndirilməsinin bu sahənin inkişafına mühüm töhfə verdiyi qeyd olunub.

Təqdim olunan nəşrlər məhkəmə-ballistik və məhkəmə-portret ekspertizaları, audio-video yazıların məhkəmə ekspertizası, yanğın və narkotiklərlə bağlı tədqiqat metodikaları, özəl məhkəmə ekspertləri üçün təlim proqramı, ekspert profilaktikasına dair məlumat kitabçası və metodik tövsiyələr, həmçinin "Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri" elmi əsərlər məcmuəsinin 69 və 70-ci buraxılışlarını əhatə edib.

Təqdimatlardan sonra metodiki yanaşmaların praktiki tətbiqi və məhkəmə ekspertizası sahəsinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"nın məhkəmə ekspertizası sahəsində ilk kompleks normativ-hüquqi sənəd olduğu qeyd olunub və bu sənəd dövlətin sözügedən sahəyə göstərdiyi diqqətin bariz nümunəsi kimi dəyərləndirilib.

Tədbirdə Ədliyyə Nazirliyi, Baş Prokurorluq, Məhkəmə-Hüquq Şurası, Ali Məhkəmə, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Vəkillər Kollegiyası, habelə Naxçıvan Muxtar Respublikası Məhkəmə Ekspertizası Mərkəzinin, Ədliyyə Nazirliyi yanında İctimai şuranın üzvləri, həmçinin bir sıra ali təhsil müəssisələrinin hüquq və kriminalistika üzrə ixtisaslaşmış kafedralarının professor-müəllim heyəti, vəkil və hüquqşünaslar iştirak ediblər.

# Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi ötən il 27 minə yaxın iş üzrə ekspert rəyi və arayış verib




**2025-ci il ərzində Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində 20 növ və 41 ekspert ixtisası üzrə ekspertlər tərəfindən 26.890 iş barədə ekspert rəyi və arayış verilib.**

Verilmiş rəy və arayışların daxil olmuş işlərə nisbəti 2024-cü il ilə müqayisədə 6.6 faiz artıb.

Hesabat dövründə ekspertlər tərəfindən 2.216.778 obyekt üzərində tədqiqat aparılıb, məhkəmələr və hüquq-mühafizə orqanları tərəfindən qərar və qərardadlarda qoyulmuş 78.808 sual cavablandırılıb.

# 2025-ci ildə Ədliyyə Nazirliyinin beynəlxalq əməkdaşlıq fəaliyyəti genişləndirilib




**2025-ci il ərzində Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq hüquqi əməkdaşlıq istiqamətində məqsədyönlü fəaliyyət davam etdirilib, xarici dövlətlərin aidiyyəti qurumları ilə qarşılıqlı hüquqi yardımın göstərilməsi və beynəlxalq hüquqi münasibətlərin inkişafı sahəsində mühüm nəticələr əldə olunub.**

Hesabat dövründə cinayət işləri üzrə hüquqi yardım, ekstradisiya və məhkumların verilməsi məsələləri ilə bağlı 4 700-dən artıq, mülki və ailə işləri üzrə hüquqi yardımın göstərilməsi, xarici dövlətlərin məhkəmə qərarlarının tanınması və icra olunması ilə bağlı isə 27 mindən çox sorğuya baxılıb. Ümumilikdə ötən il ərzində qeyd edilən istiqamətlər üzrə Nazirliyə daxil olmuş 32 minədək sorğuya baxılıb və aidiyyəti tədbirlər həyata keçirilib.

Bundan başqa, il ərzində müxtəlif istiqamətlər üzrə hazırlanmış 565 beynəlxalq müqavilə layihəsinə hüquqi rəy verilib.

Beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində görülən tədbirlər çərçivəsində Çinin, Özbəkistanın, Vyetnamın, Pakistanın, Səudiyyə Ərəbistanının, Qazaxıstanın və Oman Sultanlığının ədliyyə nazirlikləri, eləcə də digər tərəfdaş qurumlarla əməkdaşlığa dair ümumilikdə 14 beynəlxalq sənəd imzalanıb.

Ədliyyə Nazirliyi tərəfindən beynəlxalq hüquqi əməkdaşlığın inkişaf etdirilməsi, hüquqi yardım mexanizmlərinin təkmilləşdirilməsi və ölkəmizin beynəlxalq hüquq məkanında fəal iştirakının təmin olunması istiqamətində işlər ardıcıl olaraq davam etdirilir.

# Ədliyyə Nazirliyi tərəfindən ötən il mindən çox normativ hüquqi akt layihəsi hazırlanıb

**Ölkəmizdə qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə 2025-ci il ərzində Ədliyyə Nazirliyi tərəfindən 1.136 normativ hüquqi akt layihəsi hazırlanıb. Həmçinin müvafiq dövlət orqanları tərəfindən Nazirliyə təqdim edilmiş 3.135 hüquqi akt layihəsinə hüquqi rəy verilib.**

Ötən il ərzində Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmək üçün təqdim olunan 780-dən çox akt qanunvericiliyin tələblərinə uyğun olaraq məcburi hüquqi ekspertizadan keçirilib, ümumilikdə 2.489 sənəd Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilib.

Hesabat dövründə milli qanunvericiliyin elektron bazası - "e-qanun.az" saytı da mütəmadi olaraq yenilənib, sayta 5,8 milyondan artıq giriş, 28,7 milyona yaxın baxış qeydə alınıb.

Bununla yanaşı, Ədliyyə Nazirliyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində istifadəyə verilmiş, Azərbaycanın hüquqi sənəd və qanunvericilik bazasında effektiv axtarış aparmağa imkan verən süni intellekt əsaslı və milli hüquqi bazaya əsaslanan "e-qanun.ai" platformasında 4 ay ərzində 675 minə yaxın sorğu emal edilib.

# Beynəlxalq axtarışda olan şəxs Birləşmiş Ərəb Əmirliklərində tutularaq Azərbaycana ekstradisiya edilib

**Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin aidiyyəti qurumları ilə beynəlxalq axtarışa verilmiş, cinayət törədilməsində ittiham olunan şəxslərin tutularaq ölkəmizə gətirilməsi ilə bağlı səmərəli əməkdaşlıq tədbirləri davam etdirilir.**

Fevralın 20-də İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosu tərəfindən beynəlxalq axtarışa verilən daha bir şəxsin Nazirlik tərəfindən Azərbaycana ekstradisiyası həyata keçirilib.

Belə ki, bir sıra şəxslərlə qabaqcadan əlbir olaraq xüsusilə külli miqdarda zərgərlik məmulatlarını (1.683.298 manat dəyərində) Azərbaycan Respublikasının dövlət sərhəddində bəyan etmədən qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd göstərməkdə (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci maddəsi) ittiham edilmiş Azərbaycan Respublikasının vətəndaşı Səməd-zadə Tural Akif oğlunun yeri Birləşmiş Ərəb Əmirliklərində müəyyən olunub və o, həbs edilib.

